AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

**“DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ” KAFEDRASI**

## “İnzibati hüquq” fənni üzrə

# M Ü H A Z İ R Ə

(bakalavriat səviyyəsi üzrə qiyabi təhsilalanlar üçün)

**Mövzu № 11.** “Təhsil sahəsində dövlət idarəetməsi”

**Vaxt: 2 saat**
Mühazirə: 2 saat

**Tərtib etdi:** “DİO-nun inzibati fəaliyyəti” kafedrasının rəisi, polis polkovniki, h.ü.f.d., dosent Rafiq Nəcəfquliyev

Mühazirə kafedranın iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № _________________ 2016-cı il

Dəyişiklik və əlavə edilib: _______________ 2018-ci il.

Əlavə edilib: _______________ 2019-cu il.

Dəyişiklik və əlavə edilib: _______________ 2021-ci il.

**Bakı – 2016**

## Mövzu № 11. Təhsil sahəsində dövlət idarəetməsi

**Plan:**

**Giriş**

1. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları.
2. Təhsil Nazirliyi - təhsil sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin inzibati-hüquqi statusu.

**Nəticə**

**İstifadə və tövsiyə edilən mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq-Yayın Evi, 2016.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
4. Azərbaycan Respublikası Prezidentinin 04.08.2016-cı il tarixli 1007 nömrəli Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi”.
5. “Azərbaycan Respublikası Təhsil Nazirliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 1993-cü il tarixli 747 №-li Fərmanı.
6. “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı.
7. Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi”.
8. Dərslik. İnzibati hüquq. A.Abdullayev, F. Nağıyev. Bakı, 2006.
9. Dərs vəsaiti. İnzibati hüquq. V.Abışov, A.İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2011.
10. Dərslik. “İnzibati hüquq” Rafiq Nəcəfquliyev. Bakı, 2018.
11. İdara Hukuku Dersleri. Kemal Gözler. Üçüncü Baskı. Bursa 2005.
12. Берлач А.И. Административное право Украины: Учеб. Пос., Университет “Украина”, 2005., 472 с.
13. Dərslik. «Административное право» D.N. Baxrax, V.B. Rossinski, Y.N. Starilov. Moskva 2005.
14. Мартынец Л.А. “Высшее образование и Болонский процесс: учебно-методическое пособие”. – Донецк, 2013. – 188 с.
15. Administrative law by the late Sir William Wade and Christopher Forsyth. Great Clarendon Street, Oxford, United Kingdom-2014.
16. Актуальные проблемы административного права и административного процесса: Сборник научных статей // Отв. ред.М. А. Штатина. — М.: РГУП, 2017. — 280 с.
17. Учебное пособие. Административное право. Мазурин С.Ф., Прокофьев. СПб, 2019. – 312 с.
18. Рекомендации Организации Объединенных Наций и других партнеров в сфере образования “Концептуальная записка: Образование в эпоху COVID-19 и в последующий период”. Рекомендации Организации Объединенных Наций - 2020.

19. UNESCO, Global Education Monitoring (GEM) Report, 2020: Inclusion and education: all means all, 2020, available at https://unesdoc. unesco.org/ark:-/48223/pf0000373718.
20. http://www.e-qanun.az;
21. http://www.preslib.az.
22. http:/www.edu.gov.az;
23. http:/www.dim.gov.az

## Giriş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu istiqamətində uğurlu addımlar atılmışdır. Beynəlxalq təşkilatlar və qurumlarla əməkdaşlıq inkişaf etməyə başlamış, qabaqcıl dünya ölkələri ilə ayrı-ayrı sahələrdə inteqrasiya prosesləri geniş vüsət almışdır. Ölkənin daxili və xarici siyasətini təmin edən təsisatların fəaliyyəti, müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması və iqtisadiyyatın yeni infrastrukturunun formalaşdırılması məqsədi ilə hökumət tərəfindən həyata keçirilən tədbirlər respublikamızda bir sıra ixtisaslar üzrə kadr çatışmazlığı probleminin həllini zəruri etmişdir.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyat fəaliyyətinin mühüm bir sahəsidir. Təhsil sahəsi elə bir sahədir ki, cəmiyyət üzvlərinin, əhalinin, demək olar ki, tam əksəriyyəti bu sistemlə bağlıdır. Bu sahə cəmiyyət üzvlərinin əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir.

Birinci sualda təhsil sahəsində dövlət idarəetməsinin anlayışını, onun konstitusiya-hüquqi əsaslarını açıqlamaqla yanaşı, təhsilin növlərini, onların xarakteristikasını açıqlayacağıq.

Burada həmçinin təhsil sisteminin təkmilləşdirilməsi sahəsində dövlət tədbirləri, bu sahənin fəaliyyətini tənzimləyən qanunvericilik aktları haqqında məlumatlar veriləcək. Birinci sualda sadalanan məqamlarla yanaşı, təhsil sistemində dövlət idarəetməsinə ümumi və bilavasitə rəhbərliyi həyata keçirən orqanlar barədə hüquqi biliklər veriləcəkdir.

Mühazirənin ikinci sualında təhsil sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən orqan kimi Azərbaycan Respublikasinin Təhsil Nazirliyi haqqında məlumatlar şərh ediləcəkdir.

Mühazirənin üçüncü sualında Dövlət İmtahan Mərkəzinin inzibati-hüquqi statusu haqqında məlumatlar şərh ediləcəkdir.

Ölkəmizdə aparılan hüquqi islahatlar, demokratikləşdirmə, habelə idarəetmə mexanizminin və təhsil sisteminin təkmilləşdirilməsi prosesi daxili işlər orqanları üçün ixtisaslı kadrlar hazırlayan DİN-in təhsil müəssisələrinin də beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edir. Bu mühazirədə verilən məlumatlar daxili işlər orqanları üçün ali hüquq təhsilli mütəxəssis hazırlayan Polis Akademiyasında təhsilalanlar üçün mühüm əhəmiyyətə malikdir.

**Sual 1.** Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları

XXI əsri səciyyələndirən ən mühüm cəhət, heç şübhəsiz, onun “bilik” və ya “elm” çağı kimi xarakterizə olunması, elmi düşüncə səviyyəsinin və yaradıcı intellektin heç vaxt olmadığı qədər xalqların və dövlətlərin taleyində həlledici faktora çevrilməsi ilə əlamətdar olmasıdır. Yaşadığımız coğrafi məkanda əlverişli mövqelərə malik olan Azərbaycan daim elm, sənət və mədəniyyət mərkəzi kimi aparıcı yerlərdən birinə sahib olmuş, müsəlman Şərqində maarifçilik hərəkatının başlandığı, ilk demokratik respublikanın qurulduğu ölkə kimi dünya sivilizasiyasına mühüm töhfələr vermişdir.

Çağdaş sivilizasiyanın əsas aparıcı göstəricilərindən olan qloballaşma prosesinin sürətlə getməsi istənilən cəmiyyətin siyasi həyatında özünü büruzə verir. XXI yüzilliyin insanı daha bir paradoksal çağırışla üz-üzədir: fasiləsiz dəyişiklik və yeniləşmə prosesləri düşünməyi həyat tərzinə çevirir. Bu öz növbəsində artıq baş verənlərin nəticələrini təhlil edən deyil, prosesləri önləyə bilən - preventiv, strateji düşüncə fenomenini şərtləndirir.

23 may 2007-ci il tarixdə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq edilən dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malik olan “Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası”nın müvafiq bəndlərində əsasən “Peşəkar insan ehtiyatlarının çatışmazlığı” dövlətçiliyin varlığına təhlükə kimi, “Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması və inkişafı” isə milli təhlükəsizliyin başlıca istiqamətlərindən biri kimi ifadə olunmuşdur.

Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateji əhəmiyyəti ilə fərqlənən fəaliyyət sahəsidir. Təhsil hüququ vətəndaşların əsas konstitusion hüquqlarındandır.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsi “Təhsil hüququ” adlandırılmış və özündə aşağıdakıları ehtiva edir:

“Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir. “

Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır.

Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir.

Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir.

Təhsil sahəsində dövlət idarəetməsi dedikdə, təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, dövlət mülkiyyət formasından asılı olmayaraq bütün təhsil və tədris müəssisələrində təhsil prosesinə ümumi metodiki rəhbərliyin həyata keçirilməsi üzrə qanunvericiliklə səlahiyyətli dövlət hakimiyyət orqanlarının fəaliyyəti başa düşülür.

Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Təhsil haqqında Qanundan, təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsilalanların və təhsilverənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

Qeyd edilməsi zəruridir ki, ölkəmizdə vətəndaşların təhsil hüququnun təmin edilməsi işində məhsuldarlığın artırılması məqsədilə aparılan kompleks islahatlar davam etdirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 08 fevral 2012-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının ərazisində orta ixtisas təhsili müəssisələrinin, o cümlədən xüsusi təyinatlı (müdafiə, milli təhlükəsizlik və sərhəd xidməti istisna olmaqla) orta ixtisas təhsili müəssisələri yaratmaq səlahiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə verilmişdir.

**P.S.** Təhsil Qanunu Azərbaycan Respublikasında fəaliyyət göstərən dini təhsil müəssisələrinə, xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları yanında təhsil müəssisələrinə şamil edilmir.

Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:

-Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

-milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- humanistlik - milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;
- demokratiklik - təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;
- bərabərlik - bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;
- millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;
- keyfiyyətlilik - təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;
- səmərəlilik - təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;
- fasiləsizlik, vəhdətlik, daimilik - mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;
- varislik - təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;
- liberallaşma - təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;
- inteqrasiya - milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur.

Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir.

Dövlət təhsil standartları və onların qüvvədə olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

Bütün təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkili təmin olunur.

Təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyada müvafiq dövlət təhsil standartları əsas götürülür.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir.

Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər aşağıdakılardır:

-təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;

-öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;

-təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

-yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;

-cəmiyyətin yüksək səviyyəli və rəqabət qabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmaq;

-təhsil müəssisəsində tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək.

Təhsil sahəsində dövlət idarəetməsinin aşağıdakı təşkilati-hüquqi formaları fərqləndirilir:

- məktəbəqədər təlim-təhsilin təşkili üzrə fəaliyyət;
- orta təhsil müəssisələrində ibtidai təhsilin təşkili üzrə fəaliyyət;
- peşə təhsil müəssisələrində texniki-peşə və orta ixtisas təhsilinin təşkili üzrə fəaliyyət;
- ali ixtissas təhsil müəssisələrində bakalavr və magistr pilləsində təhsilin təşkili üzrə fəaliyyət;
- dissertantura, ordinatura və doktorantura təhsilinin təşkili üzrə fəaliyyət;
- pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması, ixtisasın artırılması və yenidən hazırlanması işinin təşkili üzrə fəaliyyət.

***Birinci suala yekun olaraq göstərmək olar ki,*** təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin fəaliyyətinin mühüm bir sahəsidir. Digər tərəfdən isə təhsil sahəsində idarəetməyə ümumi və bilavasitə həyata keçirən müvafiq orqanlar və onların fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar barədə hüquqi biliklər əldə etdiniz.

Təhsil sahəsində dövlət idarəetməsi dedikdə, təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, dövlət mülkiyyət formasından asılı olmayaraq bütün təhsil və tədris müəssisələrində təhsil prosesinə ümumi metodiki rəhbərliyin həyata keçirilməsi üzrə qanunvericiliklə səlahiyyətli dövlət hakimiyyət orqanlarının fəaliyyəti başa düşülür.

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir.

**Sual 2.** Təhsil Nazirliyi - təhsil sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi

Müasir dövrdə ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlarla yanaşı, həm də onun təhsil sistemindəki vəziyyət və mövcud kadr potensiali ilə ölçülür. Bu yanaşma son dövrlər üçün daha aktuallıq kəsb edir. Çünki hər bir ölkədə gedən mənfi və müsbət proseslər insan amili ilə six əlaqədardır. Hərtərəfli və davamli inkişafin etibarli yolu elm və təhsilə daha çox diqqət və qayğı göstərilməsindən və onun müasir dünya standartlarına uyğun təşkilindən keçir. Məhz buna görə qərb və yer kürəsinin digər qabaqcıl dövlətləri özlərinin inkişaf səviyyələrini qoruyub saxlamaq və yeni hədəflərə doğru irəliləmək üçün bu sahəyə xüsusi əhəmiyyət verirlər. Dünyanın qabaqcıl və inkişafda olan dövlətlərinin istehsalat və məişət təcrübəsinin təhlili deməyə əsas verir ki, inkişaf etmək istəyən cəmiyyət və dövlətlər üçün təhsil prioritetdir.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinin V hissəsinə əsasən, dövlət minimum təhsil standartlarını müəyyən edir. Bu sahədə dövlət siyasətini və tənzimlənməsini Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 1993-cü il tarixli 747 №-li Fərmanı ilə yaradılan Təhsil Nazirliyi həyata keçirir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi - təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

Təhsil Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və Təhsil Nazirliyi haqqında Əsasnaməni rəhbər tutur.

Qanunvericiliklə nəzərdə tutulan vəzifə və funksiyaların yerinə yetirilməsində Təhsil Nazirliyi Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və ictimai təşkilatlarla, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

Qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin vəzifələrinə aiddir:

- təhsil sisteminin fəaliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir və müvafiq sahə standartları hazırlayır;
- milli təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarının icrasına nəzarəti həyata keçirir;
- təhsil sahəsində dövlətlərarası, regional və beynəlxalq inkişaf proqramlarının həyata keçirilməsini təmin edir;
- təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin, təhsillə bağlı qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil edir;
- təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən edir;
- təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirir;
- təhsil sahəsində planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə, təminat, təchizat və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) istisna olmaqla) təmin edir;

- təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparır;
- qanunvericiliyə uyğun olaraq təhsil sistemində demokratik idarəetmənin tətbiqini təmin edir;
- təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsini və onlara akkreditasiya şəhadətnaməsinin verilməsini təmin edir;
- akkreditasiya olunmuş təhsil müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə məhkəmədə iddia qaldırır;
- təhsilin keyfiyyətini yüksəltmək və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqi məqsədilə eksperimentlər aparır;
- təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin edir;
- təhsil proqramlarını (kurikulumları), tədris planlarını və proqramlarını təsdiq edir;
- məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlbini təmin edir və icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;
- tabeliyində olan dövlət ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işini təşkil edir;
- xüsusi istedada malik uşaq, şagird və tələbələrin təhsillərini davam etdirmək üçün lazımi tədbirlər görür;
- təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirir;
- uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak edir;
- Nazirliyin qanun əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlayır;
- müxtəlif səviyyəli və miqyaslı fənn olimpiadaları təşkil edir;
- yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını həyata keçirir;
- açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri, təhsil müəssisələri, uşaq evləri, ümumtəhsil internat məktəbləri və inteqrasiya təlimli internat tipli təhsil müəssisələri şəbəkəsinin yaradılması, habelə inkişafında və ya davranışında qüsur olan yetkinlik yaşına çatmayanlara pedaqoji və digər yardım göstərən müəssisələrin inkişafı üçün tədbirlər görür, aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud" (xüsusi qayğıya ehtiyacı olan) uşaq və yeniyetmələrin təhsilini təşkil edir, inkişafında qüsurlar olan yetkinlik yaşına çatmayanları aşkar edən psixoloji-tibbi-pedaqoji komissiyalar yaradır, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası sahəsində təhsil orqanlarına həvalə edilən digər məsələləri həll edir;
- qəyyumluq və himayə orqanlarına metodiki kömək göstərir, valideyn himayəsindən məhrum uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;.
- məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq

maarifləndirmə tədbirləri həyata keçirir;

▪ vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, qanunvericiliyə uyğun olaraq təhsil müəssisələrində müvafiq dövlət təhsil standartları əsasında tədrisin digər dillərdə aparılmasına razılıq verir;

▪ müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görür, uşaq, şagird və tələbələrin idman yarışlarını, turist yürüşlərini, özfəaliyyətlərinə, texniki və bədii yaradıcılıqlarına baxışları və bu kimi digər tədbirləri həyata keçirir;

▪ öz səlahiyyətləri daxilində təhsil müəssisəsində bədən tərbiyəsi və idmanın təbliği forma və metodlarını müəyyən edir, qanunvericiliyə uyğun olaraq müxtəlif idman növləri üzrə proqram və normativləri təsdiq edir;

▪ bədən tərbiyəsi dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsini, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığını təmin edir, təhsil alanların üzməyi öyrənməsi, müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaradır;

▪ müvafiq icra hakimiyyəti orqanları ilə birgə təhsil müəssisələrində təhsil alanların, pedaqoji və texniki-yardımçı heyət işçilərinin tibbi müayinədən keçirilməsini təmin edir;

▪ təhsil müəssisələrində aparılan elmi araşdırmaları Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə əlaqələndirir;

▪ elmi-texniki konfransların, simpoziumların və müsabiqələrin keçirilməsini, şagirdlərin, tələbə, doktorant və müəllimlərin xarici ölkələrdə keçirilən bu kimi tədbirlərdə iştirakını təşkil edir;

▪ ali, orta ixtisas və peşə təhsili üzrə ixtisasların təsnifatı barədə təklif verir;

▪ tabeliyində ali təhsil müəssisələri olan icra hakimiyyəti orqanlarının və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrini və ixtisasları müəyyən edir;

▪ bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy verir;

▪ özəl və bələdiyyə ümumi təhsil müəssisələrinin fəaliyyətini təşviq edir və dəstəkləyir, onlara metodik kömək göstərir;

▪ yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrində elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti ilə bağlı əsasnamələri təsdiq edir;

▪ müxtəlif səbəblərə görə pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin kateqoriyası, sağlamlıq imkanlarına görə məhdudiyyət qoyulan, eləcə də eksternat yolu ilə mütəxəssis hazırlığı qadağan edilən ixtisasların siyahısı barədə təkliflər verir;

▪ mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrində məzunlara verilən dövlət təhsil sənədinin nümunəsini hazırlayır, onun verilmə qaydalarını müəyyənləşdirir, buraxılış kontingentinin sayına uyğun təhsil müəssisələrini dövlət təhsil sənədi blankları ilə təmin edir;

▪ xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirir;

▪ xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair sənədlər verir;

▪ təhsil alanlar üçün adlı təqaüdlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır;

▪ mütəxəssis-kadrlara, o cümlədən pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirir və onların iş yerləri ilə təmin olunmasını tənzimləyir;

▪ali, orta ixtisas və peşə təhsili müəssisələrinə illik tələbə qəbulu barədə təklif hazırlayır;

▪müvafiq təhsil müəssisələrində magistratura və doktoranturaların açılması məsələsini həll edir;

▪pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması və əlavə təhsili işini təşkil edir;

▪dövlət ümumi təhsil müəssisələri müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsini həyata keçirir;

▪müasir təhsil texnologiyalarından istifadə etməklə müxtəlif təhsilalma formalarının tətbiq edilməsinə və inkişafına şərait yaradır;

▪aidiyyəti icra hakimiyyəti orqanları, müəssisə və təşkilatlarla birlikdə əhalinin işləməyən təbəqəsinin peşə hazırlığını, o cümlədən əlavə təhsilini təmin edir;

▪ peşə təhsili müəssisələrini idarə etmək və fəaliyyətini əlaqələndirmək məqsədilə məlumat bazası yaradır, onun digər təhsil pillələri və səviyyələrinin məlumat infrastrukturuna inteqrasiyasını təmin edir;

▪ insan kapitalını inkişaf etdirmək, məşğulluğu təmin etmək və keyfiyyətli əmək bazarı formalaşdırmaq məqsədilə ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırır, bu istiqamətdə analitik və metodik materiallar hazırlayır;

▪ yaşlılar üçün (məcburi dövlət sosial sığortasına cəlb olunmayan şəxslərə münasibətdə) peşə təlimini və ixtisasartırmanı təmin edir;

▪ Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin peşə təhsili almaq hüququnu təmin edir;

▪ümumi təhsil müəssisələrində təhsilverənlərin attestasiyasını (dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) – sertifikatlaşdırılmasını) həyata keçirir;

▪dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Nazirliyin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi məsələsini həll edir, Nazirliyin tabeliyindəki peşə təhsili müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

▪təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51%-dən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyinə razılıq verir;

▪pedaqoji kadrlara olan tələbatın ödənilməsi üçün tədbirlər görür, gənc mütəxəssislərin iş yerlərilə təminatı prosesinə əməli köməklik göstərir, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə lazımi işlər aparır;

▪təhsil müəssisələrinin tədris-maddi bazasını inkişaf etdirir, onların tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirir;

▪qanunvericiliyə uyğun olaraq tabeliyində olan dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirir;

▪azkomplektli dövlət ümumi təhsil müəssisələrinin mövcud normativlərdən üstün maliyyələşdirilməsi məsələsini həll edir;

▪təhsil sistemində "attestasiya-maddi stimullaşdırma" mexanizminin tətbiqilə

əlaqədar təkliflər hazırlayır;

▪ təhsil işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması tədbirlərini həyata keçirir, onlara mövcud qanunvericilik çərçivəsində "Əmək veteranı" adının verilməsini təmin edir;

▪ təhsil sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görür;

▪ təhsil sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;

▪ xarici ölkələrdə yaşayan azərbaycanlıların öz ana dilində ümumi təhsil almalarına, habelə Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixi və coğrafiyasının öyrənilməsinə yardım göstərir;

▪ Azərbaycan Respublikası vətəndaşlarının mövcud qaydalara uyğun dövlət xətti ilə xaricdə təhsil almaları və elmi tədqiqat işləri aparmaları üçün tədbirlər görür;

▪ təsdiq olunmuş formada statistik məlumatların və hesabatların toplanılmasını, onların təhlilini və nəticələrin müvafiq orqanlara təqdim edilməsini həyata keçirir;

▪ öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirir və s.

Sadalanan vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi aşağıdakı hüquqlara malikdir:

♦ mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada təhsilin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar tələb etmək;

♦ təhsil sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qəbul etmək, onları dəyişdirmək və ləğv etmək;

♦ səlahiyyətləri daxilində təhsil müəssisələri tərəfindən icrası məcburi olan göstərişlər, əmr və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

♦ "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil fəaliyyəti üçün verilmiş lisenziyanın tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət etmək;

♦ mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tenderlər keçirmək, texniki şərtləri müəyyənləşdirmək, onların icrasına nəzarəti təmin etmək;

♦ qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil məsələləri ilə bağlı beynəlxalq və dövlətlərarası münasibətlərdə Azərbaycan Respublikasını təmsil etmək, qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr (sazişlər, memorandumlar, bəyannamələr və s.) imzalamaq;

♦ qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Təhsil Nazirliyinin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir. O, Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

Təhsil naziri:

✓ Nazirliyin fəaliyyətini təşkil edir və ona ümumi rəhbərliyi həyata keçirir;

✓ nazir müavinləri arasında vəzifə bölgüsü aparır;

✓ müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirliyin mərkəzi aparatının, habelə birbaşa tabeliyində olan büdcədən maliyyələşən qurumların strukturunu təsdiq edir;

✓ Nazirliyin aparatının işçilərini və təsdiq olunmuş nomenklatura çərçivəsində kadrları vəzifəyə təyin edir və vəzifədən azad edir, onlarla əmək müqavilələri bağlayır,

müqavilələri ləğv edir, işçilər barəsində qanunvericiliklə müəyyən olunmuş qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

✓ Nazirliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

✓ dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

✓ səlahiyyətləri daxilində Nazirliyin mərkəzi aparatının, habelə tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir.

✓ bilavasitə tabeliyində olan təhsil müəssisələrinin, idarə və təşkilatların nizamnamələrini (əsasnamələrini), eləcə də aparatın struktur bölmələrinin əsasnamə və iş planlarını təsdiq edir;

✓ təhsilin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır;

✓ qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin dövlət orqanları, qeyri-hökumət təşkilatları və hüquqi şəxslərlə, beynəlxalq təşkilatlarla danışıqlar aparır və s.

Təhsil Nazirliyində nazirdən (kollegiyanın sədri), nazir müavinlərindən, Naxçıvan Muxtar Respublikasının təhsil nazirindən, Nazirliyin aparatının, tabeliyində olan qurumların rəhbər işçilərindən və alimlərdən ibarət kollegiya yaradılır. Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 mart 2007-ci il tarixli 49 nömrəli qərarı ilə təsdiq olunub:

Kollegiyanın sədri:

▪ Azərbaycan Respublikasının təhsil naziri

Kollegiyanın üzvləri:

– Azərbaycan Respublikasının təhsil nazirinin müavinləri;
– Naxçıvan Muxtar Respublikasının təhsil naziri;
– Azərbaycan Respublikasının Təhsil Nazirliyi Aparatının rəhbəri;
– Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının rəhbərinin müavini.

Kollegiya öz iclaslarında təhsillə bağlı aktual məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

Kollegiya qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, protokollarla rəsmiləşdirilir və bir qayda olaraq, nazirin müvafiq əmrləri və sərəncamları ilə həyata keçirilir. Zəruri hallarda kollegiya iclaslarına iştirak etmək üçün digər icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların, habelə ictimai təşkilatların nümayəndələri də dəvət edilə bilərlər.

***İkinci suala yekun olaraq göstərmək olar ki,*** Azərbaycan Respublikasının Təhsil Nazirliyi dedikdə, təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı başa düşülür.

Təhsil Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncam-

larını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və Təhsil Nazirliyi haqqında Əsasnaməni rəhbər tutur.

Təhsil Nazirliyinin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir. O, Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**Sual 3.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin inzibati-hüquqi statusu

Həyatımızın müxtəlif sahələrini əhatə edən islahatlar içərisində təhsil ilə əlaqədar həyata keçirilən tədbirlər xüsusi önəm kəsb edir. Məlum olduğu kimi, ölkədə hər bir şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilir. Bu kimi məqsədlər aidiyyəti islahatların davamlılığını və genişləndirilməsini şərtləndirir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 11 aprel 2016-cı il tarixdə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Fərman imzalanmışdır.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması məqsədləri sırasına aid etmək olar:

- dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi;
- ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (attestasiyası);
- orta ixtisas təhsili müəssisələrinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsi;
- ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsi;
- Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsi.

Qeyd edilməsi vacibdir ki, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qeydiyyatına alındığı andan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ləğv edilmişdir. Ləğv edilən hər iki qurumun istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin balansına daxil edilmişdir.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin inzibati – hüquqi statusu Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilən Nizamnamə ilə müəyyən edilmişdir. Adı çəkilən Nizamnaməyə əsasən, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi - dövlət qulluğu sahəsində fəaliyyəti, ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədi ilə, habelə müqavilə əsasında dövlət orqanları, hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxsdir.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin əsas vəzifələri sırasına aiddir:

- dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirir və dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqənin, o cümlədən dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün keçirilən test imtahanlarının şəffaflığını təmin edir;
- ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını, orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, bakalavriat səviyyəsində hazırlıq

qruplarına, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulunu həyata keçirir.

- orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə ixtisaslar üzrə qəbul imtahanları keçirilən fənləri və keçid ballarını, bakalavriat səviyyəsində hazırlıq qruplarına keçid ballarını, o cümlədən ümumi təhsil müəssisələrində buraxılış imtahanları keçirilən fənləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla, müəyyən edir;
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bakalavriat səviyyəsində hazırlıq qruplarında tədrisin sonunda buraxılış imtahanlarını keçirir;
- "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, peşəkar mühasib sertifikatının verilməsi məqsədi ilə imtahanlar keçirir və imtahanlardan müvəffəqiyyətlə keçən şəxslərə sertifikat verir;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin ali təhsil müəssisələrinə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulunu həyata keçirir;
- öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet portalının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin portalda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin edir;
- yekun attestasiyanın təşkili məqsədi ilə ümumi təhsil müəssisələrinin V-XI sinif şagirdləri arasında monitorinq imtahanlarını keçirir;
- imtahan fənləri üzrə qəbul proqramlarını hazırlayır və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla, təsdiq edir;
- ölçmə-qiymətləndirmə materiallarının nümunələrini rəy bildirmək üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edir;
- təhsil müəssisələrinin qəbul göstəricilərini və ixtisasları elan edir, sənədlərin qəbulu və imtahanların keçirilməsi haqqında qərarlar qəbul edir, sənədlərin qəbulunu təşkil edir;
- tələbə qəbulu kampaniyası ilə bağlı bütün təşkilati və metodik işləri aparır, proqram və texniki təminatı layihələndirir və tətbiq edir, bu məqsədlə müxtəlif daimi və müvəqqəti qurumlar yaradır;
- abituriyentlərin biliyinin qiymətləndirilməsini həyata keçirir;
- Azərbaycan Respublikasının Prezidentinə tələbə qəbulu ilə, dövlət qulluğuna qəbulla və inzibati vəzifələrin tutulması ilə bağlı vaxtaşırı məlumat və hesabatlar təqdim edir;
- qəbul kampaniyasının keçirildiyi müddətdə müxtəlif bölgələrdə sənəd qəbulu komissiyaları yaradır və onların fəaliyyətinə nəzarət edir;
- abituriyentlər, təhsil müəssisələri, təşkilatlar, onların vəzifəli şəxsləri və digər şəxslər tərəfindən qəbul prosesi və ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası zamanı yol verilmiş pozuntu hallarının aradan qaldırılması ilə bağlı təqdimat verir və pozuntu halları barədə səlahiyyətli dövlət orqanlarına məlumat verir;
- müasir informasiya texnologiyaları tətbiq etməklə, tələbələr və magistrlər haqqında informasiya resurslarını formalaşdırır və onların analitik təhlilini aparır;

- peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirmiş gənclərin uçotunu elektron qaydada aparır;
- ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə istifadə edilən bütün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında elmi-metodik monitorinqini həyata keçirir;
- Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxır və müvafiq tədbirlər görür;
- dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanının məzmununu və proqramlarını təsdiq edir, inzibati vəzifələrin tutulması üzrə müsahibə proqramlarının hazırlanmasında iştirak edir və təsdiqinə razılıq verir, təsdiq edilmiş test imtahanı və müsahibə proqramlarını internet portalında yerləşdirir;
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanından keçən şəxsə sertifikat verir;
- dövlət qulluğu üzrə verdiyi sertifikatların uçotunu aparır;
- müsabiqəyə çıxarılan dövlət qulluğu vəzifələri üzrə vəzifə təlimatlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi ümumi şərtlərə uyğun hazırlanmasını təmin edir;
- dövlət orqanları tərəfindən müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarının (müvafiq vəzifə üzrə vəzifə təlimatının, müsahibə proqramlarının, müsahibə elanının, müsahibənin keçirilmə qrafikinin, keçirilmiş müsahibənin nəticələrinin) internet portalında yerləşdirilməsini təmin edir;
- müsahibədə iştirak etmək istəyən şəxsin müraciətinin və müsahibədə iştirak üçün tələb olunan sənədlərin internet portalı vasitəsilə dövlət orqanlarına təqdim olunmasını təmin edir;
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət orqanının yaratdığı müsahibə komissiyasının tərkibinə nümayəndələr təqdim edir;
- dövlət orqanlarının nümayəndələri və müstəqil ekspertlər üçün müsahibənin aparılması üzrə təlimlər təşkil edir;
- imtahanlarla, o cümlədən dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanları ilə, inzibati vəzifələrin tutulması üzrə müsahibələrlə bağlı xüsusi halların araşdırılması üçün komissiyalar yaradır;
- buraxılış və qəbul imtahanlarının yekunlarına dair elmi-statistik təhlil aparır və nəticələrini Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edir;
- dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənir və bu barədə hesabat hazırlayır;
- dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsinə dair təkliflər verir;
- dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənir və bu barədə məlumatları ümumiləşdirir;
- "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul edir;

- dövlət qulluqçularının etik davranış məsələləri üzrə araşdırmalar aparır, tövsiyələr və məruzələr tərtib edir;
- daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda, həmin materialları yoxlanılmaq üçün müvafiq orqanlara göndərir;
- dövlət qulluğu və dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunvericiliyin tələblərinin pozulması hallarını aradan qaldırmaq üçün dövlət orqanlarına və vəzifəli şəxslərə təqdimat verir və yol verilmiş pozuntu halları barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir;
- dövlət qulluğu və dövlət qulluqçularının etik davranış məsələləri barədə maarifləndirmə işi aparır;
- dövlət qulluqçularının reyestrini aparır və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi barədə məlumatların həmin reyestrə daxil edilməsini təmin edir;
- müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin əlavə təhsili üçün tədbirlər görür.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi əsas vəzifələrinin həyata keçirilməsi zamanı aşağıdakı hüquqlardan istifadə edə bilər:

- “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, fəaliyyət istiqamətləri üzrə normativ və qeyri-normativ hüquqi aktların layihələrini hazırlamaq və təqdim etmək və ya onların hazırlanmasında iştirak etmək;
- dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə öz fəaliyyət istiqamətlərinə aid məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq;
- fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, elmi tədqiqatlar aparmaq;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət informasiya sistemlərindən və ehtiyatlarından, o cümlədən “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemindən informasiya almaq;
- dövlət qulluğu sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər vermək;
- dövlət qulluğunda təlim tələbatını müəyyən etmək, dövlət qulluqçuları üçün təlim strategiyasını hazırlamaq və dövlət orqanlarına dövlət qulluqçularının əlavə təhsili barədə təkliflər vermək;
- ilk dəfə dövlət qulluğuna qəbul olan şəxslər üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşması, korrupsiyaya qarşı mübarizə və s. məsələlər üzrə, rəhbər vəzifə tutan dövlət qulluqçuları üçün isə idarəetmə və komanda qurmaq və s. məsələlər üzrə təlim kursları təşkil etmək;
- dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində iştirak etmək, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət qulluğu məsələləri üzrə beynəlxalq əməkdaşlığı həyata keçirmək;
- dövlət qulluğu və tələbə qəbulu məsələləri üzrə beynəlxalq və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və müstəqil ekspertlərlə əməkdaşlıq etmək;
- daxil olmuş şikayətlər və məlumatlardan irəli gələn məsələlərin həlli üzrə təkliflər, tövsiyələr və təqdimatlar vermək;
- dövlət orqanlarından vakant olan dövlət qulluğu vəzifələrinin siyahılarını, dövlət orqanları tərəfindən barəsində müsahibə elan edilməsi nəzərdə tutulan vakant

dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarını və vakant vəzifəyə təyinata dair məlumatı tələb etmək;

- müqavilə əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;
- konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;
- müxtəlif qurumların (şəxslərin) müraciəti əsasında tələb olunan sahədə şəxsin bilik səviyyəsini qiymətləndirmək;
- test bankının formalaşdırılması, elmi-metodik və proqram təminatının yaradılması və təkmilləşdirilməsi məqsədi ilə işçi qruplar, ekspert şuraları və elmi-metodik seminarlar təşkil etmək;
- ödənişli əsaslarla sınaq imtahanları keçirmək, ödənişli elektron xidmətlər göstərmək və müqavilə əsasında hazırlıq kursları, təlimlər təşkil etmək;
- təsərrüfat cəmiyyətləri yaratmaq;

test imtahanlarının məzmunu və mahiyyəti haqqında müxtəlif metodik vəsaitlər və test topluları hazırlamaq, bu materialları təqdim etmək, internet portalında yerləşdirmək və ya dərc etmək;

- yaradılmış test bankının mütəmadi təftişini aparmaq;
- həyata keçirilən tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması, abituriyentlərə metodik materialların çatdırılması üçün özünün mətbu orqanını təsis etmək, jurnal, bülleten və digər nəşrlər dərc etmək;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə, o cümlədən beynəlxalq imtahanları keçirən təşkilatlarla əməkdaşlıq etmək, beynəlxalq imtahanların Azərbaycan Respublikasında keçirilməsini təmin etmək.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzini Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr, 2 sədr müavini və ictimai əsaslarla fəaliyyət göstərən 4 nəfər üzvdən ibarət tərkibdə Direktorlar Şurası idarə edir. Şuranın iclasları ayda bir dəfədən az olmayaraq keçirilir. Şuranın növbədənkənar iclasları Şura üzvlərinin yarıdan çoxunun və ya Şura sədrinin təşəbbüsü ilə keçirilir. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarları Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər olduqda, Şura sədrinin səsi həlledici sayılır. Şuranın qərarları Şura sədri tərəfindən imzalanır.

Şuraya Şura sədri rəhbərlik edir. Şura sədri olmadıqda, Mərkəzin cari fəaliyyətinə rəhbərlik Şura sədri tərəfindən sədr müavinlərindən birinə həvalə edilir.

Şuranın sədrinin səlahiyyətlərinə daxildir:

- Mərkəzin fəaliyyətinə rəhbərlik etmək və bu fəaliyyət üçün tam məsuliyyət daşımaq;
- Mərkəzin fəaliyyəti barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə hesabatlar və məlumatlar vermək;
- müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Mərkəzin aparatının strukturunu, ştat cədvəlini və onların xərclər smetasını təsdiq etmək;
- səlahiyyətləri çərçivəsində icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər vermək, onların icrasına nəzarət etmək;
- imtahanların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün müvəqqəti komissiyalar yaratmaq, onların say və şəxsi tərkibini, iş reqlamentini müəyyən etmək;
- Mərkəzi dövlət orqanları və təşkilatları, digər yerli və beynəlxalq qurumlarla münasibətlərdə təmsil etmək;

- Mərkəzin adından əqdlər bağlamaq, etibarnamələr vermək, banklarda və digər kredit təsisatlarında hesablar açmaq;
- Şuranın qərarlarını təsdiq etmək və s.

## Nəticə

Qəbul edilmiş normalara görə təhsil sahəsində islahat-bu sahədə dövlət siyasətinin əsas prinsiplərinə uyğun təhsilin məqsəd və vəzifələrini həyata keçirmək mexanizmini müəyyən edir. Təhsil sistemi şəxsiyyətin formalaşması, elmin, mədəniyyətin inkişafı və işçi qüvvəsinin təkrar istehsalı kimi mühüm vəzifələri həyata keçirməlidir.

Mühazirənin 1-ci sualında təhsil sahəsində dövlət idarəetməsinə anlayış verərkən, onun ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsi olduğunu qeyd etdik. Burada həm də təhsil sahəsinin təşkilati-hüquqi əsaslarını göstərdik. Həmin sualda təhsil qanunvericiliyinə daxil olan normativ hüquqi aktlar, təhsil qanunvericiliyinin vəzifələri, eləcə də bu sahənin idarə edilməsi haqqında qeyd olundu.

Mühazirənin 2-ci sualında Azərbaycan Respublikasının Təhsil Nazirliyi - təhsil sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən orqan kimi, həmçinin təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi müzakirə olundu.

3-cü sual üzrə dövlət qulluğu sahəsində fəaliyyəti, ümumi təhsil pilləsində təhsil-alanların yekun attestasiyasını həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədi ilə, habelə müqavilə əsasında dövlət orqanları, hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxs kimi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin inzibati-hüquqi statusundan danışıldı.

Mövzunun yekununda ümummilli liderimiz H.Əliyevin sözlərini qeyd etmək yerinə düşər: “Təhsil sahəsi xalqın bu günü, millətin, dövlətin gələcəyi üçün ən vacib bir sahədir”.